**Napoleon Hill**

# ŞEYTANI ALDATMAQ

Tərcüməçi:
Sadiq Musa

qanun nəşriyyatı

**Napoleon Hill**

# OUTWITTING THE DEVIL

İnsan potensialını üzə çıxarmaqda mahir olan müəllif bu dəfə daha dərinə gedir. Qorxunun, təxirə salmanın, qəzəbin, qısqanclığın bizi məqsədlərimizdən necə yayındırdığına işıq tutur. Onun qələmə aldıqları uzun müddət gizli qalıb. Bəzən isə çap üçün uyğun hesab edilməyib.

Kitab 1938-ci ildə klassik bestseller "Düşün və varlan"dan sonra yazılıb, "Varlı və kasıb ata", "Qızıla üç addım qalmış" kimi nəşrlər üçün fundament rolunu oynayıb.

Gücü və dolğunluğu ilə fərqlənən əsər bizə maneələri aşmaq, uğur qazanmaq üçün yeddi prinsipin sirrini açır.

**Napoleon Hill OUTWITTING THE DEVIL**
**Napoleon Hill ŞEYTANI ALDATMAQ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 216 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 22.02.2023

| | |
|---|---|
| Tərcüməçi: | Sadiq Musa |
| Redaktor: | Yeganə Kərimzadə |
| Korrektorlar: | Nihat Pir,<br>Şəhla Yarıbəyli |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-714-8

© Qanun Nəşriyyatı, 2023
© Napoleon Hill, 2011

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları QANUN nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

## OXUCU ÜÇÜN QEYDLƏR

"Şeytanı aldatmaq" indiyə qədər oxuduğum ən dərin kitabdır.

Napoleon Hill Fondunun icraçı direktoru Don Grin məni bu layihəyə dəvət edəndə inanılmaz dərəcədə qürur duydum. Əl yazısını oxuyandan sonra bir həftə yata bilmədim.

1938-ci ildə Ustadın özü – Napoleon Hill tərəfindən qələmə alınan əsər Hill ailəsi tərəfindən düz 72 il gizli saxlanılıb. Niyə? Çünki onlar əsərin doğuracağı əks-sədadan qorxublar. Hill bu əsərində şeytanın hər gün bizim ətrafımızda – kilsələrdə, məktəblərdə, siyasətdə oynadığı oyunları, cəmiyyətin əsaslarını necə dağıtdığını öz cəsarəti ilə ortaya qoyurdu. Mən əsərlə tanışlıqdan sonra bir çox məsələlərin fərqinə varmağa başladım.

Kitab 1938-ci ildə qələmə alınsa da, sanki bu gün üçün nəzərdə tutulmuşdu. Cəmiyyəti silkələyəcək gücə sahib idi. Həmin dövrün iqtisadi sıxıntılarının səbəblərini sanki ortaya qoyurdu. Kitab həmçinin həyatımızdakı şeytanı məğlub etmək üçün bizə önəmli ipucları verir. Əsər bizə uğurlu olmağın, ətrafımıza dəyər qatmağın sirlərini açır. "Düşün və

varlan" kitabı böyük depressiyadan özümüzə gəlməyə, uğur qazanmağa necə kömək etmişdisə, "Şeytanı aldatmaq" kitabı da bizim bugünkü uğurlarımızın açarı olacaq. Kitabda yazılan bütün fikirlər Hillin özünə aiddir. Orijinal əlyazma kifayət qədər uzun olsa da, mən onları mahiyyəti saxlamaqla ixtisar etdim. Bir çox mövzulara işıq tutmağa, onun fikirlərinə aydınlıq gətirməyə çalışdım. Mən öz fikirlərimi Şaronun qeydləri kimi əlyazmaya əlavə etdim ki, orijinal mətnlə mənim düşüncələrim qarışmasın. Bu, oxucuya kitabı mənim şərhimlə və ya şərhsiz oxumaq imkanı qazandırdı. Sizə bu kitabdan zövq almağı, onu dostlarınız və ailə üzvlərinizlə paylaşmağı məsləhət görürəm. Əminəm ki, Hillin əsərindəki bu güc sizin həyatınızı həmişəlik dəyişmək iqtidarındadır.

Təşəkkür edirəm.
***Şaron Lekhter***

# ÖN SÖZ

Doktor Napoleon Hill, heç şübhəsiz, ən tanınmış fərdi inkişaf yazarı, mütəfəkkir, ilhamlandırıcı və bütün dövrlərin ən çox oxunan müəllifidir. Biz istərdik ki, siz ilk olaraq şeytanla müsahibəni oxuyasınız. Siz bu müsahibəni oxuduqdan sonra Şeytanın kimliyi, onun sizə təsirləri barədə əsas düşüncələrə sahib olacaqsınız. Şeytan özü sizə 98 faiz insanla necə davrandığı barədə məlumat verəcək. Bildiyiniz kimi, Hill düşüncə stimulyatorudur. O, sözü çox uzatmadan bizi öz həyatının önəmli məqamlarına götürəcək, həyatının dönüş nöqtələrini bizə anladacaq. Hill dünyada ən vacib, ən lazımlı, ən əsası, faydalı uğur prinsiplərini öyrənən insanlardan biri olsa da, onları necə istifadə etməli olduğunu, ən asan tətbiq yollarını bilmirdi. Əminik ki, hazırda da bir çox insan eyni durumdadır. Ağıllı sözləri, düşüncələri dilə gətirmək asandır. Şaron Lekhter bizə bu işdə kömək edəcək, Hillin fikirlərini bugünkü dollara, düşüncə və anlayış tərzinə çevirməkdə yardımçı olacaq. Doktor Hill öz şəxsi nailiyyətlərindən yola çıxaraq davamlı xoşbəxtliyin necə əldə edildiyini insanlara aşılamaq istəyirdi. Onun daxili hissiyyatı öz həyat çətirini tapmaqda ona yardımçı olmuşdu. Siz bu kitabı oxuduqca Hillin depressiya illərində yaşadığı gərginliyi, ümidsizliyi hiss edəcək, yaşadıqlarının ona necə mənfi təsir etdiyini anlayacaqsınız. Bənzər durumlardan özünüzün də keçdiyinizin fərqinə varacaqsınız. Bu ilhamverici kitabı oxumaqla bədbinlik-

dən, neqativ düşüncələrdən azad olacaq, yeni, daha parlaq yola qədəm qoyacaq, sizi gözləyən işıqlı gələcəyə ümidlə baxacaqsınız. Siz də ustad Hill kimi qorxularınıza qalib gələcək, onların sizi idarə etməsinə imkan verməyəcəksiniz. Səbirlə məqsədinizə doğru irəliləyəcək, kim olmaq istədiyinizə qərar verəcək və istədikərinizin reallaşmasına çalışacaqsınız. Siz Doktor Hillin sehrli tapıntılarından yola çıxaraq başa düşəcəksiniz ki, siz sərhədsiniz. Hill düzgün olaraq belə deyir: "Məhdudiyyətləri siz özünüz üçün yaratmısınız". Müəllif bu kitabda beş yüz ən uğurlu insanın düşüncələrinə yer verdiyindən sizin üçün olduqca faydalı olacaq. Siz kitab boyu onun müsahibə aldığı şeytanın real, yoxsa təxəyyül məhsulu olduğunu anlayacaq, öz həyatınızdakı şeytan və ya şeytanlarla müqayisə etmək imkanı qazanacaqsınız.

***Mark Viktor Hansen***[1]

[1]Mark Voktor Hansen – Nyu-York Times-ın ən çox satılan "Ruh üçün toyuq şorbası" kitab seriyasının həmmüəllifi. "Milyonerlərin kodunu sındırmaq", "Bir dəqiqəlik milyoner", "Bir göz qırpımında nağd pul" kitablarının həmmüəllifi.



**FƏSİL 1**

# MƏNİM ENDRYU KARNEQİ İLƏ İLK GÖRÜŞÜM

Əsrin dörddə birindən çox müddətini uğur və uğursuzluğun fəlsəfəsinə həsr etdim. Məqsədim uğur və uğursuzluğun mahiyyətini anlamaq istəyən insanlara yardımçı olmaq idi. Mənim əmək fəaliyyətim mərhum Endryu Karneqi ilə müsahibəylə başladı. Mən səmimi şəkildə cənab Karneqiyə hüquq məktəbinə daxil olmaq arzumu ifadə etdim. O mənim arzuma həm də fərqli yön qatdı. Cənab Karneqi ilə ilk görüşümün sonunda o məndən nə qədər cəsarətli olub-olmadığımı soruşdu və mənə bir təklifinin olduğunu dedi. Mən ona cəsarətdən başqa çox az şeyə sahib olduğumu bildirdim və əlavə etdim ki, onun təklifini canla-başla yerinə yetirməyə hazıram. Onun təklifi belə oldu: "Mən səni həvəsdən salmaq istəmirəm, ancaq bir ideyam var. Onu reallaşdırsan, təqdirəlayiq addım atmış olarsan. Uğurlu bəy və xanımlardan müsahibələr al və bu işi davam etdir. Sən bu yolla uğurun və uğursuzluğun səbəblərini araşdırmış olacaqsan, eyni zamanda, gələcək nəsillər qarşısında böyük xidmətin olacaq. Dünyada milyonlarla insan var ki, uğur və uğursuzluğun səbəbləri barədə heç bir anlayışı yoxdur. Məktəb və kolleclər fərdi nailiyyətlərin prinsiplərindən başqa hər şeyi öyrədirlər. Onlar gənc qız və oğlanların dörd ildən səkkiz ilə qədər zamanını alıb mücərrəd biliklər öyrədirlər, ancaq həmin bilikləri harada istifadə edəcəklərini demirlər. Dünyanın praktiki, anlaşıqlı uğur fəlsəfəsinə ehtiyacı var. Bu bilikləri isə həyat universitetindən məzun olmuş uğurlu bəy və xanımlardan əldə etmək olar. Mən fəlsəfənin heç bir qolunda beynimdə olan uğur fəsləfəsinə rast gəlməmişəm. Bizim yaşamaq sənətini öyrədə biləcək olduqca az sayda filosofumuz var. Belə görürəm, bu iş sənin kimi bir ambisiyalı gəncin üzərinə düşəcək. Ancaq unutma ki, belə bir tapşırığın öhdəsindən

gəlmək üçün ambisiya kifayət deyil. Bu işi üzərinə götürəcək insanda həm cəsarət, həm də dözüm olmalıdır. 20 ilini davamlı bu sahəyə həsr etməlisən. Bu isə o deməkdir ki, şəxsin başqa mənbələrdən gəliri olmalıdır, çünki bu cür araşdırmalar ilk başlarda gəlirli olmur. Adətən, sivilizasiyanın inkişafına xidmət etmiş insanlar öz layiqli qiymətini ölümlərindən yüz il sonra alırlar.

**ŞARONUN QEYDLƏRİ:** 20 İL HEÇ NƏ QAZANMAMAQ VƏ GƏLƏCƏKDƏ BELƏ QİYMƏTLƏNDİRİLMƏMƏ EHTİMALI! SİZ BELƏ BİR TƏKLİFƏ NƏ CAVAB VERƏRDİNİZ? BUNUNLA BELƏ, HİLL KARNEQİNİN TƏKLİFİNİ QƏBUL EDİR. KARNEQİ ONA HƏM DƏ DÖVRÜN NƏHƏNGLƏRİ SAYILAN UĞURLU İNSANLARIN SİYAHISINI TƏQDİM EDİR VƏ ONA UĞURLAR ARZULAYIR. HƏMİN SİYAHIDA TEODOR RUZLVELTİN, TOMAS EDİSONUN, CON ROKFELLERİN, HENRİ FORDUN, ALEKSANDR QRAHAM BELİN, KİNQ JİLLETİN ADLARI VAR İDİ. ONUN SƏYLƏRİ BİR NEÇƏ MÖHTƏŞƏM NƏŞRİN ƏRSƏYƏ GƏLMƏSİ İLƏ NƏTİCƏLƏNDİ. "UĞURUN QANUNLARI", "DÜŞÜN VƏ VARLAN" KİMİ NƏŞRLƏR 20 İLLİK ARAŞDIRMANIN NƏTİCƏSİ İDİ. "DÜŞÜN VƏ VARLAN" FƏRDİ İNKİŞAF SAHƏSİNDƏ ƏN GENİŞ YAYILMIŞ NƏŞR SAYILIR VƏ ŞƏXSİ İNKİŞAFLA MƏŞĞUL OLAN KURS RƏHBƏRLƏRİNİN BU GÜN DƏ ƏL KİTABIDIR. HİLLİN ÖZÜNÜN DƏ DEDİYİ KİMİ "DÜŞÜN VƏ VARLAN" KİTABI ONUN AŞKARA ÇIXARDIĞI UĞUR PRİNSİPLƏRİNƏ ƏSASLANIR. TƏXMİN EDİRƏM Kİ, BU KİTABIN ƏLYAZMASI "DÜŞÜN VƏ VARLAN" KİTABI NƏŞR OLUNDUQDAN SONRA ƏRSƏYƏ GƏLİB. "ŞEYTANI ALDATMAQ" KİTABI MƏNƏVİ OYANIŞI ÖZÜNDƏ ƏKS ETDİRİR VƏ ŞEYTANLA MÜBARİZƏDƏ NECƏ QƏLƏBƏ QAZANA BİLƏCƏYİMİZİ EHTİVA EDİR.